Jl. Mas Putih Blok D Persil 29
Grogol Utara Kebayoran Lama
Jakarta Selatan 12210
Tel. : 549 19 39
Faks : 549 17 45
E-mail: azerbembjkt@link.net.id

Azərbaycan Respublikasının Səfirliyi
Cakarta

# Press-reliz

20 sentyabr 1994-cü ildə “Əsrin Müqaviləsi” ilə başlanğıcı qoyulmuş Azərbaycanın enerji strategiyasının 13 iyul 2006-cı ildə Türkiyənin Ceyhan Aralıq dənizi limanında beynəlxalq əhəmiyyətli ilk tədbiri baş tutdu.

$4 milyard vəsaitin sərf edildiyi Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəməri 1774 km-lik məsafəni əhatə edir. Azərbaycanın Ümumilli lideri Heydər Əliyevin siyasəti nəticəsində reallıqa çevrilən BTC onun adını daşıyacaqdır.

28 may 2006-cı ildə boru kəməri Ceyhana çatmışdır və təntənəli açılışadək 4.8 milyon barel neft istehlakçılara çatdırılması üçün neft tankerlərinə yüklənmişdir.

Boru kəməri 2008-ci ildə 1 milyon bareli nəql etmək iqtidarında olacaq. O, Azərbaycanın yüngül neftini nəql edəcək, Qazaxıstan da layihəyə qoşulmaq üçün saziş imzalamış, ilk əvvəl ildə 7.5 milyon ton, sonralar isə 20 milyona qədər nəql edəcəyini bəyan etmişdir.

Açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, Gürcüstan Prezidenti cənab Mixail Saakaşvili, Türkiyə Respublikasının Prezidenti cənab Əhməd Necdət Sezər, Türkiyə Respublikasının Baş Naziri cənab Rəcəb Tayyib Ərdoğan, ABŞ və AB da daxil olmaqla 30-dan çox dövlət və hökumət nümayəndələri iştirak etmişlər.

Tıxaclar və tez-tez baş verən tanker qəzaları nəticəsində ətraf mühitə və sahilyanı yaşayış məntəqələrinə təhlükə yarandığına görə boru kəməri Bosfor boğazından keçmir.

Azərbaycan, Gürcüstan, Türkiyə və bütövlükdə bölgə, Avropa və dünya üçün iqtisadi, siyasi, enerji təhlükəsizliyi baxımından BTC vacib əhəmiyyət kəsb edir.

BTC və 2006-cı ilin sonunda istismara veriləcək Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri Azərbaycan, Gürcüstan və Türkiyəni bir-biri, Avropa və dünya birliyi ilə daha da yaxınlaşdıracaq və regionda sabitlik, sülh və təhlükəsizliyin möhkəmləndirilməsi və bü ölkələrin beynəlxalq mövqelərinin güclənməsi ilə nəticələnəcəkdir.

ABŞ layihəyə hərtərəfli dəstək vermişdir.

17 iyul 2006-cı il